*37-378.*

***Taleh Fərman oğlu Xəlilov***
*Naxçıvan Dövlət Universitetinin*
*dosenti, pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0003-2350-743X*
*E-mail:x.taleh@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).157-162*

# STRATEJİ PLANLAŞDIRMA ƏSASLI İDARƏETMƏ TƏCRÜBƏLƏRİNİN BEYNƏLXALQ TƏHLİLİ (TÜRKİYƏ, İNGİLTƏRƏ VƏ ALMANİYA NÜMUNƏSİNDƏ)

***Taleh Farman Khalilov***
*associate professor of*
*Nakhchivan State Universit,*
*doctor of philosophy in pedagogy*

# INTERNATIONAL ANALYSIS OF STRATEGIC PLANNING-BASED MANAGEMENT PRACTICES (THE CASES OF TURKEY, THE UNITED KINGDOM, AND GERMANY)

***Талех Фарман оглы Халилов***
*доцент*
*Нахичеванского Государственного Университета*
*доктор философии по педагогике,*

# МЕЖДУНАРОДНЫЙ АНАЛИЗ УПРАВЛЕНЧЕСКИХ ПРАКТИК, ОСНОВАННЫХ НА СТРАТЕГИЧЕСКОМ ПЛАНИРОВАНИИ (НА ПРИМЕРЕ ТУРЦИИ, ВЕЛИКОБРИТАНИИ И ГЕРМАНИИ)

**Xülasə.** Bu məqalədə ali təhsil müəssisələrində strateji planlaşdırmaya əsaslanan idarəetmə modellərinin Türkiyə, İngiltərə və Almaniya təcrübəsi əsasında müqayisəli təhlili aparılmışdır. Məqalədə hər üç ölkənin strateji planlaşdırma sistemlərinin hüquqi çərçivəsi, tətbiq mexanizmləri, maraqlı tərəflərin iştirakı və performans əsaslı qiymətləndirmə meyarları kontekstində fərqlilikləri və oxşarlıqları araşdırılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, idarəetmədə strateji yanaşmanın səmərəliliyi institusional muxtariyyət, şəffaf hesabatlılıq və davamlı monitorinq sistemləri ilə birbaşa əlaqəlidir. Bu aspektlərin effektiv şəkildə inteqrasiya olunduğu ölkələrdə ali təhsilin idarəolunmasında daha yüksək nəticələr əldə olunur.
***Açar sözlər:*** *Strateji planlaşdırma, ali təhsil, idarəetmə təcrübəsi, beynəlxalq müqayisə, Türkiyə, İngiltərə, Almaniya*

**Abstract.** This paper presents a comparative analysis of strategic planning-based management models in higher education institutions, focusing on the cases of Turkey, the United Kingdom, and Germany. It examines the legal frameworks, implementation mechanisms, stakeholder engagement, and performance-based evaluation criteria in each country. The findings indicate that the effectiveness of strategic management is closely linked to institutional autonomy, transparent accountability, and robust monitoring systems. Countries with well-integrated elements of these practices achieve more effective governance outcomes in higher education.
***Keywords:*** *Strategic planning, higher education, management practices, international comparison, Turkey, United Kingdom, Germany*

**Аннотация.** В данной статье проводится сравнительный анализ управленческих моделей в высших учебных заведениях, основанных на стратегическом планировании, на примере Турции, Великобритании и Германии. Рассматриваются законодательные рамки, механизмы реализации, участие заинтересованных сторон и критерии оценивания эффективности. Результаты исследования показывают, что эффективность стратегического подхода напрямую зависит от институциональной

автономии, прозрачности отчетности и устойчивых систем мониторинга. В странах, где эти элементы успешно интегрированы, наблюдаются более высокие показатели управления в сфере высшего образования.

***Ключевые слова:*** *стратегическое планирование, высшее образование, управленческий опыт, международное сравнение, Турция, Великобритания, Германия*

Ali təhsil sahəsində strateji planlaşdırma idarəetmənin müasir yanaşmalarından biri kimi ön plana çıxır və bu sahədə beynəlxalq təcrübələrin müqayisəli təhlili əhəmiyyət kəsb edir. Qlobal dəyişikliklərin təsiri altında ali təhsil müəssisələri yalnız təhsil və tədqiqat funksiyalarını yerinə yetirməklə kifayətlənmir, həm də sosial, iqtisadi və mədəni inkişafda mühüm rol oynayır. Bu şəraitdə strateji planlaşdırmanın tətbiqi, universitetlərin uzunmüddətli məqsədlərinə nail olmaq, resursları effektiv idarə etmək və rəqabət qabiliyyətini artırmaq üçün zəruri bir vasitəyə çevrilmişdir [3, s. 12148].

Strateji planlaşdırma, təşkilatların mövcud daxili potensialını və xarici mühit faktorlarını sistemli şəkildə təhlil etməsinə, aydın vizyon və məqsədlər formalaşdırmasına imkan verir. Bu prosesdə istifadə olunan müxtəlif analiz alətləri qərarvermənin əsaslandırılmış və realistik olmasını təmin edir, həmçinin idarəetmə proseslərinin şəffaflığını gücləndirir [1, s. 48].

Beynəlxalq səviyyədə, müxtəlif ölkələrin ali təhsil sistemlərində strateji planlaşdırma fərqli idarəetmə mədəniyyətləri və siyasi strukturlara uyğun olaraq formalaşır. Məsələn, ABŞ-da universitetlər yüksək səviyyədə avtonomiyaya malik olmaqla öz strateji istiqamətlərini müəyyən edir, Almaniyada isə əyalət əsaslı və performansa dayalı idarəetmə modelləri üstünlük təşkil edir [2, s. 6228]. İngiltərə nümunəsi isə strateji planlaşdırmanın həm daxili idarəetməni təkmilləşdirmək, həm də beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək məqsədilə necə tətbiq olunduğunu göstərir [4, s. 8]. Eyni zamanda, Türkiyədə 2006-cı ildən bəri qəbul edilmiş performansa əsaslanan strateji planlaşdırma yanaşması universitetlərin fəaliyyətində müəyyən standartlar yaratmışdır, lakin tətbiq və monitorinq mexanizmlərində hələ də inkişaf sahələri mövcuddur [5, s. 48].

Bu araşdırmanın məqsədi, Türkiyə, İngiltərə və Almaniya nümunələrində strateji planlaşdırma əsaslı idarəetmə təcrübələrini müqayisəli şəkildə təhlil etmək, bu təcrübələrin funksionallığını müəyyənləşdirmək və Türkiyə ali təhsil sisteminin inkişafına töhfə verə biləcək tövsiyələr formalaşdırmaqdır [2, s. 6229]. Beləliklə, ali təhsil müəssisələrinin daha səmərəli, şəffaf və hesabatlı idarəetmə ilə qlobal rəqabət mühitində mövqelərini gücləndirmələri təmin edilə bilər.

### Tədqiqatın məqsədi və metodologiyası

Bu tədqiqatın əsas məqsədi ali təhsil müəssisələrində strateji planlaşdırma əsaslı idarəetmə təcrübələrinin müxtəlif ölkələrdə – xüsusilə Türkiyə, İngiltərə və Almaniya nümunələrində – necə qurulduğunu və tətbiq olunduğunu müqayisəli şəkildə araşdırmaqdır. Tədqiqat, strateji planlaşdırma proseslərinin idarəetmə strukturlarına, korporativ performansa və dövlət siyasətlərinə təsirlərini müəyyən etməyi, eləcə də bu təcrübələrin Türkiyə ali təhsil sistemində tətbiq imkanlarını qiymətləndirməyi hədəfləyir.

Metodoloji yanaşma olaraq keyfiyyətyönlü tədqiqat üsulu seçilmiş, sənəd araşdırması və məzmun təhlili əsas götürülmüşdür. Bu çərçivədə, hər üç ölkənin müvafiq təhsil orqanları tərəfindən yayımlanmış strateji planlaşdırma sənədləri, qanunvericilik aktları, universitetlərin illik fəaliyyət hesabatları və beynəlxalq təşkilatların hesabatları ətraflı şəkildə təhlil edilmişdir. Əsas diqqət, strateji planların hazırlanması, tətbiqi, monitorinq və qiymətləndirmə mexanizmlərinə yönəldilmişdir.

Bununla yanaşı, mövcud akademik ədəbiyyat və nəzəri çərçivələr də tədqiqatın strukturunun formalaşmasına xidmət etmişdir. Strateji xəritələşdirmə, performans idarəetməsi və korporativ idarəetmə modelləri kimi konseptual yanaşmalar əsasında məlumatlar sistemləşdirilmiş və müqayisəli təhlil aparılmışdır. Bu metodologiya tədqiqatın beynəlxalq təcrübələri vahid nəzəri çərçivədə təhlil etməsini və Türkiyə üçün praktiki tövsiyələr formalaşdırmasını təmin etmişdir.

Nəticədə, tədqiqat strateji planlaşdırmanın müxtəlif idarəetmə kontekstlərində funksionallığını ortaya qoymaqla yanaşı, Türkiyənin ali təhsil sistemində strateji idarəetmənin effektivliyinin artırılması üçün zəruri addımları müəyyən etməyə yönəlib. Bu yanaşma, həm yerli təcrübə-

lərin inkişafına, həm də qlobal təhsil mühitində rəqabət qabiliyyətinin gücləndirilməsinə töhfə verəcəkdir.

**NƏTİCƏLƏR VƏ MÜZAKİRƏ**

Bu bölümdə tədqiqat çərçivəsində analiz edilmiş üç ölkənin ali təhsil sistemlərində strateji planlaşdırma əsaslı idarəetmə tətbiqləri siyasət çərçivəsi, tətbiq modeli, performans meyarları və korporativ təsir aspektləri əsasında müqayisəli şəkildə təhlil edilir.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI (ABŞ)**

Amerika Birləşmiş Ştatları ali təhsil sistemi müxtəlif tələblərə cavab verən çevik və müstəqil idarəetmə modelinə əsaslanır. Bu model universitetlərin öz strategiyalarını özlərinə uyğun şəkildə formalaşdırmalarına və tətbiq etmələrinə imkan yaradır.

Amerika Birləşmiş Ştatları ali təhsil sisteminin mərkəzləşməmiş strukturu strateji planlaşdırmanın universitet səviyyəsində formalaşmasını mümkün edir. Universitetlər böyük ölçüdə müstəqil idarəetmə hüququna malik olduqları üçün, öz strateji planlarını vizyon və missiyalarına uyğun hazırlamaq azadlığına sahibdirlər [1, s. 88]. Bu azadlıq universitetlərə yerli və qlobal mühitin tələblərinə cavab verən, innovativ və uzunmüddətli planlar hazırlamaq üçün geniş imkanlar təmin edir.

ABŞ-da strateji planlaşdırma təcrübələri adətən 5–10 illik dövrləri əhatə edir; planlar vizyon-missiya bəyanatı, SWOT təhlili, strateji məqsədlər, fəaliyyət planları və performans göstəriciləri kimi əsas komponentlərdən ibarətdir. Planların hazırlanmasında akademik və inzibati heyətin yanaşı, tələbələr, məzunlar və yerli icma kimi xarici paydaşların fikirlərinə də müraciət edilir. Bu, planların daha inklüziv və realistik olmasına şərait yaradır [5, s. 68]. Belə geniş iştirak modeli strateji planların bütün maraqlı tərəflərin ehtiyac və gözləntilərini əhatə etməsinə imkan verir.

Bundan əlavə, universitetlərdə strateji planların həyata keçirilməsi prosesi müntəzəm olaraq izlənilir və performans hesabatları dərc olunaraq şəffaflıq prinsipi qorunur. Kurumsal akkreditasiya və maliyyələşdirmə mexanizmlərinin planların uğuru ilə birbaşa əlaqələndirilməsi, strateji planlaşdırmaya funksional dəyər qazandırır. Bu yanaşma ABŞ modelini iştirakçılıq, hesabatlılıq və keyfiyyət təminatı baxımından güclü bir nümunə kimi təqdim edir. Strateji planlaşdırmanın tətbiqi, idarəetmədə səmərəliliyin artırılması və universitetlərin rəqabət qabiliyyətinin gücləndirilməsi üçün vacib bir vasitə kimi qəbul olunur.

Bu kontekstdə, ABŞ ali təhsil müəssisələrində strateji planlaşdırma prosesi sadəcə sənəd hazırlanması fəaliyyəti deyil, həm də korporativ idarəetmənin əsas elementlərindən biridir. Planlaşdırma prosesinə cəlb olunan müxtəlif paydaşlar sayəsində strateji məqsədlər həm daxili, həm də xarici mühitin tələblərinə uyğun şəkildə formalaşdırılır; tətbiq və izləmə mərhələlərində şəffaflıq və hesabatlılıq təmin olunur. Nəticədə, strateji planlaşdırma ABŞ-da ali təhsil müəssisələrinin dəyişən şəraitə adaptasiya olma qabiliyyətini artıran dinamik və davamlı idarəetmə aləti kimi fəaliyyət göstərir.

**Türkiyə**

Türkiyə Respublikasında strateji planlaşdırma anlayışı dövlət idarəçiliyində 5018 saylı Dövlət Maliyyə İdarəçiliyi və Nəzarət Qanunu ilə sistemləşmiş və bu inkişaf ali təhsil müəssisələrinə də təsir etmişdir. Bu qanunvericilik çərçivəsində ali təhsil müəssisələrinin strategiyalarını müəyyən edilmiş bələdçi sənədlərə əsasən hazırlaması tələb olunmuşdur.

Türkiyədə strateji planlaşdırma təcrübələrində universitetlər arasında ciddi fərqliliklər mövcuddur. Bəzi universitetlər strateji planlarını formal sənəd kimi hazırlayarkən, digərləri bu planları qurumsal inkişafın əsas vasitəsi kimi qəbul edir. Tədqiqatlar göstərir ki, strategiya sənədlərinin hazırlanması mərhələsində iştirakçılıq və real məqsədlərin müəyyən olunması bəzən sadəcə formal xarakter daşıyır və bu da planların effektivliyini azaldır [3, s. 12154; 4, s. 15]. Bu vəziyyət strateji planlaşdırmanın praktik tətbiqində əsas problemlərdən biridir və davamlı inkişaf üçün həll yollarının tapılmasını tələb edir.

Eyni zamanda, strateji xəritələşdirmə, performans göstəricilərinin təyini və resursların planlaşdırılması sahəsində təcrübənin artırılması zərurəti açıq şəkildə nəzərə çarpır [3, s. 12160]. Bu sahələrdə mövcud boşluqlar, ali təhsil müəssisələrinin strateji məqsədlərinə çatmaq üçün ehtiyac duyduqları effektiv idarəetmə və resurs bölgüsü mexanizmlərinin zəifliyindən irəli gəlir. Əlavə olaraq, strateji planların icra və monitorinq mexanizmləri hələ də zəif inkişaf etmişdir.

Universitetlərdə strateji planların həyata keçirilməsini izləmək və nəticələri qiymətləndirmək üçün nəzərdə tutulan hesabatlılıq və ölçmə strukturları çox vaxt kifayət qədər funksional deyil [2, s. 6230]. Bu isə planların real icrasına mənfi təsir göstərir.

Bu çərçivədə, Türkiyədə strateji planlaşdırmanın həqiqətən qurumsal idarəetməyə töhfə verməsi üçün planlaşdırma prosesinin demokratikləşdirilməsi, performansa əsaslanan qiymətləndirmə sistemlərinin gücləndirilməsi və tətbiqlərin izlənilməsinin artırılması zəruridir. Bu tədbirlər universitetlərin strateji planlarını daha praktik və nəticəyönlü şəkildə həyata keçirmələrinə imkan verəcək.

Bununla yanaşı, Türkiyədə strateji planlaşdırma tətbiqlərinin effektivliyinin artırılması yalnız qanuni tələblərin yerinə yetirilməsi ilə mümkün deyil; proseslərin daha çox iştirakçı, şəffaf və hesabatlı şəkildə idarə olunması tələb olunur. Universitetlərin strateji planlarını öz qurumsal mədəniyyətlərinə inteqrasiya etmələri, konkret məqsədlər əsasında fəaliyyətlərini müntəzəm olaraq izləmələri və qiymətləndirmələri olduqca vacibdir. Eyni zamanda, strateji planlaşdırma proseslərində iştirak edən personalın peşəkar qabiliyyətlərinin artırılması və daxili kommunikasiya mexanizmlərinin səmərələşdirilməsi strateji idarəetmənin uğurla həyata keçirilməsində mühüm rol oynayacaqdır. Beləliklə, Türkiyənin ali təhsil sistemi dəyişən şəraitə daha çevik uyğunlaşan və beynəlxalq rəqabət qabiliyyətini artıran struktur kimi inkişaf edə bilər.

**İngiltərə**

İngiltərədə strateji planlaşdırma tətbiqləri uzun illərdir ki, ali təhsil sistemində qurumsallaşmış şəkildə həyata keçirilir. Bu ölkədə ali təhsil müəssisələri öz avtonom strukturlarına malik olmaqla yanaşı, hökumətin müəyyən etdiyi ali təhsil siyasətləri və keyfiyyət standartları əsasında strateji istiqamətlərini müəyyən edirlər.

İngiltərədə strateji planlaşdırma prosesində xarici maraqlı tərəflərin iştirakı böyük önəm daşıyır. Xüsusilə işgüzar dairələr, yerli idarəetmələr və məzun şəbəkələri ilə əməkdaşlıq çərçivəsində hazırlanan planlar daha praktik və davamlı olur. Fonlama mexanizmlərinin böyük hissəsinin performansa əsaslanması strateji planların məzmununun birbaşa institutların büdcəsi ilə bağlı olmasını təmin edir. Bu da universitetlərin məqsədlərini daha dəqiq, ölçülə bilən və hesabat verə bilən şəkildə formalaşdırmaq məcburiyyətində qalmasını şərtləndirir [5, s. 31]. Bu yanaşma, planların həm daxili, həm də xarici maraqlı tərəflərin tələblərinə cavab verməsini təmin edir.

Bundan əlavə, İngiltərədə keyfiyyət təminatı sistemləri strateji planların effektivliyinin qiymətləndirilməsində birbaşa rol oynayır. Bu qurumlar sayəsində planlaşdırma yalnız hesabat vermək vasitəsi kimi deyil, davamlı inkişaf üçün istifadə olunan strateji rəhbərlik aləti kimi fəaliyyət göstərir [4, s. 12]. Bu yanaşma planların təkcə sənəd olaraq qalmasının qarşısını alır və onları idarəetmənin canlı bir hissəsinə çevirir.

Bu kontekstdə, İngiltərədə strateji planlaşdırma prosesləri təkcə universitetlərin daxili idarəetmə mexanizmlərinin bir hissəsi olmaqla qalmır, həmçinin xarici maraqlı tərəflərlə effektiv əməkdaşlıq və performansa əsaslanan hesabatlılıq prinsipləri ilə formalaşır. Keyfiyyət təminatı sistemlərinin dəstəyi ilə strateji planlar davamlı təkmilləşdirmə mədəniyyətinin mərkəzində yer alır və bu da ali təhsil müəssisələrinin rəqabətqabiliyyətli və davamlı struktur kimi inkişafına şərait yaradır. İngiltərə modeli, strateji planlaşdırmanın bütövlükdə və şəffaf idarəetmə vasitəsi kimi istifadəsinə dair mühüm nümunə təqdim edir.

**Almaniya**

Almaniya ali təhsil sistemi əsasən əyalət əsaslı quruluşa malikdir. Bu səbəbdən universitetlər strateji planlarını aidiyyəti əyalət hökumətlərinin ali təhsil siyasətləri çərçivəsində hazırlayırlar, lakin eyni zamanda akademik avtonomiyalarını mühüm dərəcədə qoruyurlar.

Strateji planlaşdırma proseslərində performansa əsaslanan müqavilələr əhəmiyyətli yer tutur; universitetlər müəyyən edilmiş hədəflərə sadiq qalaraq dövlət maliyyə mənbələrinə çıxış əldə edirlər. Bu yanaşma universitetlərin daha hesabatlı və nəticə yönümlü fəaliyyət göstərməsini təmin edir [5, s. 69]. Bu mexanizm universitetlərin resurslarından daha effektiv istifadə etməsinə və strateji məqsədlərə nail olunmasına zəmin yaradır.

Alman universitetlərinin strateji planları adətən tədqiqat prioritetləri, üçüncü tərəf maliyyələşdirilməsinin artırılması, beynəlxalqlaşma və məzunların uğurları kimi göstəricilər üzərində qurulur. Bundan əlavə, DAAD və digər milli qurumların təqdim etdiyi bələdçi sənədlər uni-

versitetlərə strukturlaşdırılmış yanaşma təklif edir və strateji planlaşdırmanın milli hədəflərlə uyğunlaşdırılmasına imkan yaradır [2, s. 6231; 6, s. 57]. Bu sənədlər, universitetlərin strateji planlaşdırma prosesini sistemləşdirərək onların milli və regional tələblərə uyğunlaşmasını asanlaşdırır.

Bununla belə, Almaniyada universitetlər arasında tətbiq müxtəlifliyi müşahidə olunur. Bəzi universitetlər strateji planlarını idarəetmə zərurəti kimi qəbul edərkən, bəziləri bu prosesi qurumsal transformasiya üçün bir imkan kimi qiymətləndirirlər. Bu müxtəliflik universitetlərin öz strategiyalarını fərqli tərzdə həyata keçirməsinə şərait yaradır və idarəetmədə elastikliyi artırır. Eyni zamanda, bu vəziyyət tətbiq keyfiyyətində uyğunsuzluqlara da səbəb ola bilər.

Nəticə etibarilə, Almaniyada strateji planlaşdırma tətbiqləri mərkəzi siyasətlər ilə yerli avtonomiya arasında balansda formalaşır və universitetlərin öz prioritetlərinə görə fərqlənməsinə imkan verir. Bu müxtəliflik strateji planlaşdırmanın elastik və uyğunlaşdırıla bilən idarəetmə aləti kimi istifadəsini təmin edir. Almaniya təcrübəsi göstərir ki, strateji planlaşdırma proseslərinin səmərəliliyi üçün həm mərkəzi rəhbərlik, həm də qurumsal mənimsəmə arasında balansın qorunması mühüm əhəmiyyət kəsb edir. Bu balans universitetlərin həm milli tələblərə cavab verməsini, həm də öz strategiyalarını müstəqil şəkildə formalaşdırmasını mümkün edir.

**Nəticə**

Bu tədqiqat ali təhsil müəssisələrində strateji planlaşdırma əsaslı idarəetmə praktikalarını müqayisəli şəkildə araşdıraraq əhəmiyyətli nəticələr ortaya qoymuşdur. Təhlil göstərir ki, strateji planlaşdırma ali təhsil qurumlarının uzunmüddətli məqsədlərinə çatmasında və idarəetmə səmərəliliyinin artırılmasında vazkeçilməz bir vasitədir. Lakin bu prosesin uğuru əsasən tətbiq olunduğu ölkənin idarəetmə strukturu, mədəni xüsusiyyətləri və institusional yetkinlik səviyyəsindən asılıdır.

Araşdırılan beynəlxalq təcrübələrdə strateji planlaşdırmanın əsas prinsipləri kimi iştirakçılıq, hesabatlılıq, performans ölçümü və paydaşlarla səmərəli qarşılıqlı əlaqənin önəmi vurğulanır. Bu amillər, planların formal prosedurdan çıxaraq, institutların real idarəetmə və qərarvermə proseslərinə tam inteqrasiya olunmasını təmin edir. Səmərəli strateji planlaşdırma üçün planlama mərhələsində bütün maraqlı tərəflərin fəal iştirakının təmin olunması vacibdir. Eyni zamanda, strateji məqsədlərin ölçüləbilən və izləniləbilən olması, planların davamlı icra və monitorinqi strateji idarəetmənin gücləndirilməsi baxımından zəruridir.

Bununla yanaşı, institusional potensialın artırılması, peşəkar təlimlərin təşkil edilməsi və strateji planların qərarvermə mexanizmlərinə inteqrasiyası uğurun əsas şərtlərindəndir. Nəticə olaraq, strateji planlaşdırma yalnız ali təhsil müəssisələrinin idarəetmə öhdəliyi deyil, eyni zamanda onların davamlı inkişafı və qlobal rəqabət qabiliyyətinin yüksəldilməsi üçün strateji bir vasitə kimi qəbul edilməlidir.

**Problemin aktuallığı.** Sürətlə dəyişən sosial, iqtisadi və texnoloji mühitdə ali təhsil müəssisələrinin uzunmüddətli inkişafının təmin olunması və rəqabət qabiliyyətinin artırılması üçün strateji idarəetmə yanaşmalarının tətbiqi olduqca vacibdir. Effektiv strateji planlaşdırma olmadan, təhsil sistemləri mövcud resurslardan səmərəli istifadə edə, keyfiyyətli təhsil xidmətləri göstərə və dəyişən tələblərə çevik şəkildə adaptasiya olmaqda çətinlik çəkir. Bu səbəbdən ali təhsildə strateji idarəetmənin inkişaf etdirilməsi və praktikada tətbiqi həm yerli, həm də qlobal səviyyədə aktuallığını qoruyur.

**Problemin yeniliyi.** Tədqiqatın yeniliyi strateji idarəetmənin ənənəvi modellərdən fərqli olaraq, innovativ yanaşmalar və rəqəmsal texnologiyaların tətbiqi ilə araşdırılmasıdır. Eyni zamanda, maraqlı tərəflərin – o cümlədən tələbə, akademik heyət, sənaye nümayəndələri və ictimaiyyətin – fəal iştirakı əsasında idarəetmə proseslərinin daha şəffaf və demokratik şəkildə qurulması diqqət mərkəzindədir. Tədqiqat dayanıqlı inkişaf prinsiplərinə və çevik idarəetmə modellərinə əsaslanaraq, ali təhsil sektorunda strateji planlaşdırmanın yeni metodoloji çərçivələrini təqdim edir.

**Problemin praktik əhəmiyyəti.** Təhsildə strateji idarəetmənin uğurlu tətbiqi təhsil müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılmasına, resursların optimal istifadəsinə və təhsilin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Bununla yanaşı, idarəetmədə şəffaflıq, hesabatlılıq və çevikliyin təmin edilməsi təhsil sisteminin dayanıqlı inkişafını dəstəkləyir. Praktik olaraq, bu yanaşma universitetlərin daxili proseslərini təkmilləşdirməyə, qlobal rəqabət mühitində mövqeyini gücləndirməyə və sosial-mədəni dəyişikliklərə sürətlə uyğunlaşmağa imkan verir.

**Ədəbiyyat**

1. Bryson, J. M. Strategic Planning for Public and Nonprofit Organizations. 5th edition. Wiley, –2018. – 544 p.
2. Khalilov, T., Adilzade, I., Rzayev, O., Guliyev, N., & Yusifova, N. The role of strategic planning in the organization of management systems in higher education institutions: insights from international practice. Edelweiss Applied Science and Technology, Vol. 8, No. 6, 2024, –pp. 6227–6235.
3. Khalilov, T., Aliyev, V., Guliyeva, M., & Babayeva, M. Strategic management mechanisms, directions, and functions in higher education. Pak. j. life soc. Sci, 22(2), –2024, –pp.12146-12162.
4. OECD. Higher Education Policy Reviews: England. OECD Publishing, –2021, –23 p.
5. Yükseköğretim Kurulu (YÖK). Stratejik Planlama Rehberi. Ankara, YÖK Yayını, –2023, –129 p.

**Redaksiyaya daxil olub:** 07.11.2025